**DOI: https://doi.org/10.59849/2957-3882.2023.2.125**
**UOT: 17; 297**

# QARABAĞDA YENİDƏNQURMA PROSESİ KONTEKSTİNDƏ POSTMÜHARİBƏ MƏRHƏLƏSİNDƏ İNFORMASİYA ETİKASI

**Fəxriyyə MƏMMƏDZADƏ***

***Açar sözlər:*** *Postmüharibə, süni intellekt, informasiya etikası, Qarabağ, yenidənqurma, rəqəmsal texnologiyalar*

## XÜLASƏ

Məqalədə Qarabağda yenidənqurma prosesində postmüharibə mərhələsində informasiya etikasının böyük rolu önə çəkilir. Qeyd olunur ki, yeni informasiya texnologiyaları dəqiq işlənmiş proqramlar üzrə Qarabağın yenidən qurulmasında tətbiq edilməlidir. Belə görünür ki, Azərbaycanın inkişaf strategiyasında insan kapitalı mərkəzi yer tutur və onun inkişafı başlıca strateji məqsəddir. Bu isə o deməkdir ki, həyata keçiriləcək bütün proqramlar mahiyyətcə insanyönümlü və kollektiv rifahın təmin edilməsi istiqamətlidir.

Beləliklə, müəllif tədqiqat işində ölkəmizin postmüharibə mərhələsində iqtisadi və ekoloji inkişafın dayanıqlı və davamlı olması üçün etik aspektin həyata keçməsini nəzərə çatdırır.

## Giriş

İnformasiya texnologiyalarının inkişafı və tətbiqi ilə əlaqədar meydana yeni mənəvi-əxlaqi problemlər çıxır. Bu problemlər kompüter etikası, roboetika, informasiya etikası və digər elmi istiqamətlər çərçivəsində tədqiq edilir. İndi informasiya texnologiyaları insan haqları, intellektual azadlıq, məsuliyyət, təhlükəsizlik və s. kimi məsələlərə də toxunur. İnformasiyanın əlçatımlı olması da hazırda bütün dünya üçün aktual olan problemlərdəndir. İnformasiya etikasını araşdıran tədqiqatçılar informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin etik, hüquqi və sosial aspektlərini sıx qarşılıqlı əlaqədə görürlər.

Məsələnin bu aspektinin ayrı-ayrı ölkələr üçün xüsusi məzmunu da ola bilər. Çünki hər bir ölkə özünəməxsus tarixi təkamül yolu keçmişdir və bu proses indi də davam edir. Hazırkı tarixi mərhələdə istənilən müstəqil dövlət üçün dayanıqlı və davamlı inkişafın təminində müasir texnologiyaların tətbiqinin etik aspekti ciddi rol oynayır.

Bu aspektdə mövcud vəziyyətin sadə olmadığını etiraf etmək lazımdır. Çünki fəlsəfi-nəzəri olaraq etik qaydaların tətbiqi məsələsi perspektivli görünə bilər, lakin onun konkret praktiki tətbiqi ayrıca bir yanaşma tələb etməkdədir. Həm də hər ölkənin elm adamları özləri bu məsələni araşdırmalıdırlar. Nəzəri normaların praktiki səmərəliliyini başqa cür təmin etmək mümkün deyildir.

Bu səbəbdən, hər bir ölkədə fərqli etik modellər hazırlana bilər. Deyək ki, ailə modeli üzərində qurulmuş Azərbaycan cəmiyyətində elektron-kültür şəraitində (və ya rəqəmsal mədəniyyət mühitində) tətbiqi etikanın müxtəlif istiqamətlərinin tətbiqi hətta qonşu dövlətlərdən fərqli ola bilər. Bu özəlliyi araşdırmaq və konkret Azərbaycan üçün qənaətlər əldə etmək gərəkdir. Düşünürük ki, bu məqalədəki analizin Azərbaycan üçün aktuallığı vurğuladığımız məqamlarla sıx bağlıdır.

## I. Qarabağın yenidən qurulması proqramları: sosial-iqtisadi inkişafın prioritetləri

Müasir tarixi mərhələdə cəmiyyətin yüksək dərəcədə informasiyalaşması bu anlayışın kollektiv həyatın fəaliyyətində ontoloji rol oynamağa başlamasını ifadə edir. Yəni informasiya indi fərdin və

* *AMEA Fəlsəfə və Sosiologiya İnstitutu.*
*E-mail: fakhriya.mamedzade@gmail.com*

cəmiyyətin bütün sferalarda həyat fəaliyyətinə immanentdir. Bunun konkret ifadəsi rəqəmsallaşmanın sosial-mədəni həyatın təşkilində fundamental rol oynamağa başlamasında özünü göstərir. Burada nəzəri ilə texniki, idraki ilə praktiki fəaliyyət bir-biri ilə çulğalaşmışdır.

Qeyd etmək lazımdır ki, informasiya texnologiyaları ilə humanitar elmlərin qarşılıqlı əlaqəsi konvensional bir vəziyyət yaratmaqdadır. Bunun mənası ondan ibarətdir ki, informasiya texnologiyaları heç bir halda humanitar sferanı məhdudlaşdırmır və o cümlədən, ənənəvi humanitar-etik problemləri arxa plana atmır. Bu tezis elektron kültür (e-culture) adlanan fenomenin əhəmiyyətli tərkib hissələrindəndir. Elektron kültür informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin humanitar sahəsinə tətbiqinin dəyər şərtlərini müəyyən edir [1, s.7-12]. Elektron kültürün məzmununu elektron texnologiyalar vasitəsi ilə cəmiyyətin maddi və mənəvi nemətlərinin saxlanmasına və inkişaf etdirilməsinə yardım edən bütün faktorlar müəyyən edir. Məsələn, 3D texnologiyası arxitekturanın dağıdılmasının qarşısını almaqda və onların gələcək nəsillər üçün saxlanmasında ciddi rol oynaya bilər [2, s.15-25].

Burada bizim mövzu üçün böyük əhəmiyyəti olan bir məqamı vurğulamaq lazım gəlir. Biz, erməni vandalizminin Qarabağda Azərbaycan mədəni abidələrini dağıtması faktının fəlsəfi-etik dəyərləndirilməsi zərurətini nəzərdə tuturuq. Postmüharibə mərhələsində Azərbaycan fəlsəfi-etik fikrinin mühüm vəzifələrindən biri də həm həmin vandalizmin bütün çılpaqlığı ilə dünya ictimaiyyətinə çatdırılması, həm də indiki mərhələdə Qarabağda Azərbaycan mədəniyyətini buna bənzər təcavüzlərdən qorumağın informasiya-texnoloji “sipər”ini yaratmaqdan ibarət olmalıdır.

Konkret olaraq, burada postmüharibə mərhələsində nəzəri ilə praktiki tətbiqin sintezinə, harmoniyasına nail olmaq gərəkdir. Yeni informasiya texnologiyaları dəqiq işlənmiş proqramlar üzrə Qarabağın yenidən qurulmasında tətbiq edilməlidir. Bu zaman, prosesin fəlsəfi, etik, sosial, mədəni, ekoloji və digər aspektləri bir-biri ilə uzlaşmış formada təmin edilməlidir. Şübhəsiz ki, vurğuladığımız faktorlar postmüharibə mərhələsində bölgələrin uğurlu idarə edilməsi siyasəti ilə tam şəkildə uyğunlaşdırılmalıdır. Burada məsələnin etik aspekti ikiqat əhəmiyyət daşıyır. Yəni həm bu problemin nəzəri hissəsi konkret olaraq Qarabağda postmüharibə mərhələsinin özəllikləri ilə uyğunlaşaraq hazırlanmalıdır, həm də konkret proqramlarda tətbiqi reallaşmalıdır.

Burada qarşıya gözlənilməyən və əvvəllər müşahidə edilməyən vəzifələrin və problemlərin çıxa biləcəyi istisna deyildir. Əhəmiyyətlidir ki, müasir fəlsəfi-etik təfəkkür problemin bu aspektini də nəzərə almışdır. Bu bağlılıqda “texnoloji sinqulyarlıq” və ya “intellektual sıçrayış” (the technological singularity, or the intelligence explosion) deyilən bir nəzəri istiqamət maraq doğurur. Bu nəzəriyyədə müəyyən hipotetik hadisələrin baş verə biləcəyi ehtimalı nəzərdən keçirilir. Həmin hadisələr insan intellektini üstələyən intellektə malik maşınların yaradılması fərziyyəsini qəbul etməklə təsəvvür edilir. Yəni əgər elə olsa, bəşəriyyəti nələr gözləyir? Burada onu da nəzərə alırlar ki, bu cür maşınlar “fövqəlzəka”ya malik maşınlar ixtira etmək imkanlarına malik ola bilərlər. Bununla bağlı Devid Çalmers yazır ki, “təxmin edək ki, insandan üstün olan maşın iki ilə... ondan 10% ağıllı yeni maşın yarada bilər və fərz edək ki, bu prinsipi sonsuza qədər genişləndirə bilərik. Onda 4 il müddətində... intellekt... sonlu zamanda sonsuz səviyyədə... yüksələ bilər. Bu proses həqiqətən “sinqulyarlıq” adına layiqdir” [3, s.8]. Bu halda kompüterə proqramlaşdırılmış şüur kimi baxıla bilər. C.Syörl vurğulayır ki, “əlbəttə, beyin rəqəmsal kompüterdir” [4].

Beləliklə, həm indiki mərhələdə, həm də yaxın gələcəkdə hər bir toplumda kompüterləşmə, informasiyalaşma sosial-mədəni həyatda ciddi dəyişiklər edə bilər. Vəziyyət texnoloji sinqulyarlıqda təsvir olunan mənzərə də ala bilər. Bu isə o deməkdir ki, postmüharibə mərhələsində bu cür yeniləşmələrə hazır olan addımlar atılmalıdır. O cümlədən, yuxarıda vurğuladığımız fəlsəfi-etik məqamların diqqətə alınması çox vacibdir. Bu istiqamətdə yarana biləcək vəziyyətə daha geniş miqyasda baxmaq lazım gəlir. Bunun üçün Azərbaycanda hazırlanmış strateji inkişaf sənədlərinin müddəalarına nəzər salmaq gərəkdir.

Prezident İlham Əliyev Qarabağın yenidən qurulması proqramlarını izah edərkən həmişə vurğulayır ki, orada müasir infrastruktur qurulacaq, ekoloji təmiz bölgə yaradılacaq, “yaşıl” və innovativ iqtisadiyyat yaradılacaq. Yəni həm ən müasir sosial-mədəni və iqtisadi infrastruktur

yaradılacaq, həm də "rəqəmsal idarəetmə" çərçivəsində müxtəlif proqramlar həyata keçiriləcək. Bu sırada "ağıllı şəhər", "ağıllı qəsəbə", "ağıllı kənd" layihələri və süni intellekt (kompüter) vasitəsi ilə idarəetmə ayrıca yer tutur.

Bu müddəaları strateji sənədlərdə ifadə olunan müddəalarla müqayisə etdikdə Azərbaycan rəhbərliyinin sistemli və davamlı vahid kurs üzrə postmüharibə mərhələsində inkişafı təmin etmək qərarlılığını görə bilərik. Məsələn, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəddə yazılmışdır: "Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" [5].

Bu Milli Prioritetlərə əsaslanaraq ölkənin "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanmışdır. Həmin Sənəddə yazılmışdır: "Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olur. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir.

Məhz bu məqsədlə "Azərbaycan – 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq olunmuş və bu prioritetlərə söykənən "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanmışdır. Bu Strategiyanın reallaşması 2026-cı ilin sonuna ölkə iqtisadiyyatının simasında böyük dəyişikliklərə səbəb olacaq, iqtisadi artım tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacaq, xüsusilə prioritet sahələrdə artım templəri sürətlənəcək, iqtisadiyyatın və məşğulluğun dayanıqlığı daha da güclənəcəkdir" [6, s.4].

Bu cür preambuladan sonra həmin Sənədin iki punktunun məzmununa baxaq: 1) "İqtisadi artımın inklüziv və dayanıqlı olması üçün kənd və şəhərlər arasında inkişaf balansı gözlənilir. Kəndlərdə də şəhərlərdəki kimi, müasir sosial-iqtisadi infrastrukturun vacib elementləri olan təhsil ocaqları, tibb müəssisələri, mədəniyyət evləri, mühüm kommunal və inkişaf xidmətləri ***rəqəmsal texnologiyalar*** əsasında yaradılır. Bütün bunlar şəhər və kənd yerləri arasında həyat standartlarında fərqi əhəmiyyətli dərəcədə azaldır. Kəndlərin planlanması və əhalinin məskunlaşması zamanı regionun iqtisadi dəyər zəncirində mövcud və potensial rolu nəzərə alınır" [6, s.10]; 2) ***Rəqəmsal texnologiyaların*** tətbiqi və aşağıtəmaslı iqtisadi sahələrin inkişafı perspektivləri yüksək bilik və bacarıqları olan ***insan resurslarına tələbi*** artırır. Bu ehtiyacların təmin olunması istiqamətində iki strateji xətt mövcuddur. Birinci strateji xətt müasir iqtisadiyyatın ehtiyaclarına cavab verən ***təhsilin yeni məzmununun formalaşmasıdır***. İkinci strateji xətt isə ***mövcud insan resurslarının yenidən kvalifikasiyası üçün ömürboyu təhsil imkanlarının yaradılmasıdır.*** Hər iki strateji xəttin paralel həyata keçirilməsi ***iqtisadi şaxələnmə və sürətli rəqəmsallaşma*** üçün faydalıdır" [6, s.10-11].

Bu punktlardan ifadə edilən fikirlərin ortaq məntiqinin fəlsəfəsi anlamı maraqlıdır. Belə görünür ki, Azərbaycanın inkişaf strategiyasında insan kapitalı mərkəzi yer tutur və onun inkişafı başlıca strateji məqsəddir. Bu isə o deməkdir ki, həyata keçiriləcək bütün proqramlar mahiyyətcə insanyönümlü və kollektiv rifahın təmin edilməsi istiqamətlidir.

Həmin bucaq altında kəndlə şəhərin inkişafının harmoniyası, islahatların bütövlükdə insanyönümlü olması və burada rəqəmsal texnologiyaların geniş tətbiqi avtomatik olaraq bizim yuxarıda analiz etdiyimiz informasiya etikası, rəqəmsal etika, təşkilati etika, kompüter etikası, roboetikanın konkret layihə bilikləri müstəvisində səmərəli sintezinin reallaşması zərurəti aydın dərk edilir.

Özü də bu, layihələrin kənddə və ya şəhərdə reallaşdırılmasına fərq qoymadan edilməlidir. Çünki islahatların mahiyyəti, fəlsəfəsi və məqsədi bütövlükdə ölkəni bir tam olaraq inkişaf etdirmək, bütün sferalarda cəmiyyətin inklüzivliyini təmin etməkdən ibarətdir. İnklüzivlik topluma bir tam sistem olaraq yanaşdıqda və onun hər bir sferasının ayrı-ayrılıqda və digər sferalarla qarşılıqlı əlaqədə inkişaf etdirdikdə təmin edilə bilir. Şübhəsiz ki, bu prosesdə məsələnin etika tərəfi olduqca ciddi aktuallıq təşkil edir.

2030-cu ilə qədər sosial-iqtisadi inkişafın Milli Prioritetləri ilə bağlı sənədin "İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" bəndində yazılmışdır: "...prioritetin uğurla reallaşdırılması üçün aşağıdakı iki məqsədə nail olunmalıdır:

- dayanıqlı məskunlaşma;
- iqtisadi fəaliyyətə reinteqrasiya" [5].

Dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiyanın təmin edilməsi üçün 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında konkret müddəalar müəyyənləşdirilmişdir. Orada deyilir: "Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Bu prioritet daxilində strateji dövrdə aşağıdakı iki məqsədin effektiv reallaşdırılmasına nail olunmalıdır: 1) yüksək keyfiyyətli ekoloji mühit; 2) yaşıl enerji məkanı".

Və daha konkret iki punkt: 1) "Regionda dairəvi iqtisadiyyata əsaslanan "ağıllı" biznes modelləri yaradılacaq"; 2) "Ekoloji təmiz və iqtisadi cəhətdən səmərəli bərpa olunan enerji mənbələrindən istifadə genişləndirilməklə "yaşıl enerji zonası" konsepsiyası tətbiq ediləcək" [6, s.18].

Beləliklə, konkret olaraq Qarabağın yenidən qurulmasında "ağıllı biznes modelləri" və "yaşıl enerji zonası" konsepsiyası bir-birini tamamlayacaq. Onların qarşılıqlı əlaqəsində insan kapitalının inkişafına baxmaq lazım gəlir. Hər iki aspektin sintezdə təmin edilməsi üçün postmüharibə mərhələsində etik şərtlərin ödənməsi həlledici rol oynayacaqdır. Çünki "ağıllı biznes" faktiki olaraq "rəqəmsal biznesdir". Onun həyata keçirilməsi isə informasiya, təşkilati, kompüter, robotexnika və s. sahələrə aid olan etik qaydaların nəzərə alınmasını tələb edir.

## II. Azərbaycanın Qarabağ bölgəsində postmüharibə mərhələsində biznes (iş) etikasının tətbiqi

Burada təşkilatların idarə edilməsi və kollektivdə etik normaların təmini məsələləri öz aktuallığını göstərir. Postmüharibə mərhələsində idarəetmənin müasir tələblər səviyyəsində aparılmasının strateji əhəmiyyəti aydın görünür. Məsələ ondan ibarətdir ki, insanyönümlü islahatların aparılması və onların məqsədi təmin etməsi (konkret olaraq, Qarabağ regionunun reinteqrasiyasına nail olmaq) iş etikasının yüksək səviyyədə olmasına əsaslanır. Müasir araşdırmalar, o cümlədən bizim yuxarıda toxunduğumuz məqamlar bunu təsdiq edir.

Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı postmüharibə mərhələsində biznes etikası sferasında özəl məqamlar da mövcuddur. Məsələ ondan ibarətdir ki, Ermənistanın işğalı müddətində həmin bölgədə mədəni-mənəvi abidələrə, milli adət-ənənələrə, dini dəyərlərə və ekoloji mühitə qarşı vəhşi davranışlar olmuşdur. İşğalçılar mədəniyyət abidələrini dağıtmışlar, onları müxtəlif üsullarla təhqir etmişlər. Aborigen türklərin adət-ənənələrini ifadə edən hər bir fakta qarşı son dərəcə vandalist münasibət göstərmişlər. O sırada dini abidələri, qəbiristanlıqları, qəbir daşlarını təhqir etmişlər. Bunlarla yanaşı, xarici ölkələrdən dəvət etdikləri şirkətlərin Azərbaycanın Qarabağ bölgəsinin ekologiyasını korlaması hallarına göz yummuşlar və onları ancaq istismar düşündürmüşdür. Erməni işğalçılar Azərbaycanın meşələrini, çaylarını, göllərini zəhərləmişlər və hətta nüvə tullantılarından istifadə etmişlər. Vandallar işğal etdikləri ərazidə kənd və şəhərləri xaraba qoymuşlar – onlar həm tikililəri dağıtmış, həm də qanunsuz olaraq maddi nemətləri Ermənistan və İrana daşımışlar.

Bütün bunlar o deməkdir ki, Azərbaycanın Qarabağ bölgəsində erməni işğalçılar ekoloji, mədəni, mənəvi-əxlaqi təmiz mühiti tamamilə korlamışlar. Həmin səbəbdən postmüharibə mərhələsində başlıca məqsədlərdən biri ağıllı, təmiz və müasir elektron kültürün tələblərinə cavab

verən biznes (iş) mühitinin yaradılmasından ibarətdir. Filosoflar iş etikasını xarakterizə edərkən iş münasibətlərinin özəlliyini vurğulayırlar. Yəni iş mühiti faktiki olaraq iş etikasından yaranır. Çünki "sahibkarlıq sosial yaradıcılıqdır..." [7, s.70]. Elə bir yaradıcılıqdır ki, dəyərlər ön plana çıxır. Digər faktorlar isə arxa plana keçir.

Deməli, postmüharibə mərhələsi üçün Qarabağla bağlı iş etikası faktiki olaraq bir neçə hissədən ibarətdir. Birincisi, erməni vandalizmi və bir sıra xarici şirkətlərin anti-ekoloji davranışlarının hüquqi qiymətləndirilməsi gərəkdir. Çünki bu baş verməsə, təkrar oluna bilər və dünyanın digər regionları üçün də potensial təhlükə meydana gələ bilər.

İkincisi, işğalçıların vurduqları ekoloji və mədəni zərərlər aradan qaldırılmalıdır. Bu istiqamət də çox aktualdır. Çünki belə olmasa, perspektivli ekoloji mühit yaratmaq mümkün deyildir və deməli, sözün həqiqi mənasında ağıllı biznesi reallaşdırmaq imkansızdır.

Bu o deməkdir ki, filosofların biznes fəaliyyətinə sosial yaradıcılıq kimi baxmaları şərti Qarabağda ermənilərin yaşadıqları ərazidə ermənilər və xarici şirkətlərin fəaliyyəti üzündən özünü doğrultmur. Burada ermənilər və bir sıra xarici şirkət üçün biznes fəaliyyətinin etik aspekti arxa plandadır, onlar üçün maddi və maliyyə gəliri önəmlidir.

Belə bir vəziyyət postmüharibə mərhələsində Azərbaycan dövləti üçün bölgənin biznes mühitinin yaxşılaşdırılması məqsədilə əlavə təhlükəsizlik proqramları həyata keçirməyi aktuallaşdırır. Bu da postmüharibə mərhələsində Qarabağın yenidən qurulmasında etik dəyərlərin reallaşdırılması üçün daha çevik, sistemli və uzaqgörən davranmağı tələb edir. Həmin kontekstdə, görünür ki, filosofların bir tövsiyəsinə ciddi əməl etmək lazım gəlir. Məsələn, A.S.İvanov yazır: "Ətraf mühitə dağıdıcı total antropogen təsirlərin güclənməsi təbiətdə tarazlığın pozulmasına və onun özünübərpa etməsini itirməsinə aparır ki, qətiyyətli müdafiəedici qanunverici ölçülər götürülməsi ilə yanaşı, təbiəti qorumaq istiqamətində yüksək mənəvi tənzimləyicilər də tətbiq olunmalıdır" [7, s.71].

Bu müddəanı ümumiləşdirdikdə ekoloji məsuliyyətlə sosial məsuliyyətin sintezinə nail olmaq zərurətini görmək mümkündür. Həmin məqam Azərbaycanın 2022-2030-cu illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyasında konkret punktlarda ifadəsini tapmışdır. Biznes fəaliyyətinin sosial komponenti həmin sənəddə ön plandadır.

Vurğuladığımız məqamlar onu göstərir ki, postmüharibə mərhələsində Qarabağ bölgəsində yenidənqurma işlərində ağıllı biznes və ya rəqəmsal biznes faktoru aparıcı yer tutur. Bu zaman həyata keçirilən proqramlarda sosial, iqtisadi, energetik, hüquqi, logistik və humanitar aspektlərin ciddi surətdə nəzərə alınır. Humanitar aspektin özünün də etika çərçivəsində iki mühüm tərəfi mövcuddur. Onlardan biri bölgədə etnik mənsubluğundan asılı olmayaraq hər bir vətəndaşın sosial-humanitar tələblərinin müasir sosial rifah cəmiyyətinin qurulması səviyyəsində təminidir. Digəri isə erməni işğalı nəticəsində pozulmuş demoqrafik düzənin ədalətli bərpasıdır.

Birinci aspektlə bağlı Azərbaycan dövləti xüsusi proqramlar həyata keçirir və Qarabağda məskunlaşmış erməni köklü əhalinin sosial, hüquqi, mənəvi-mədəni, iqtisadi, energetik və ekoloji ehtiyaclarının ödənməsi üçün lazım gələn bütün proqramları bundan sonra da reallaşdırmağa hazır olduğunu nümayiş etdirir.

İkinci aspektlə bağlı isə qarşıda duran başlıca məsələ Qarabağda yaşayan azərbaycanlıların öz yurdlarına qayıdışını təmin etməkdən ibarətdir. Strateji sənəddə bu qayıdışın fəlsəfəsi "dayanıqlı məskunlaşma" adlanır. Həmin sənəddə yazılmışdır: "Azərbaycanın tarixi ərazi suverenliyinin bərpası əhalinin öz doğma torpaqlarına qayıdaraq yaşaması üçün yeni mərhələ yaratmışdır. İşğaldan azad olunmuş bölgələrdə əhalinin dayanıqlı məskunlaşması təmin edilməlidir. Bu məqsədlə həmin ərazilər cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilməli, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılmalıdır" [bax: 5 və 6].

Bu prosesin konkret nəticələri də müəyyənləşdirilmişdir. Sənədlərdə yazılmışdır: "Hərtərəfli təhlükəsiz və əlverişli həyat şəraitinin yaradılması vətəndaşların əbədi məskunlaşması üçün böyük əhəmiyyət daşıyacaq. Bunun üçün yeni ərazilərdə layiqli yaşayış təmin edilməli, müasir infrastruktur qurulmalı, rahat həyat tərzi və müasir xidmətlərə əlçatanlıq olmalıdır. Regionun iqtisadi

potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması təmin edilməlidir" [5 və 6].

Deməli, dayanıqlı məskunlaşma dayanıqlı inkişafın demoqrafik təməlini təşkil edir. Bu, həm də iqtisadi reinteqrasiya, təmiz ətraf mühit və "yaşıl inkişaf" faktorlarının bir-biri ilə uzlaşmasının bazasını yaradır. Bu kontekstdə Strateji sənəddə yazılmışdır: "Qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə olacaqdır.

Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir"... və ..."iqtisadi artımla ekoloji mühit tarazlı olmalıdır. Ölkədə yararsız torpaq sahələri dövriyyəyə cəlb edilməklə mövcud resurslarımız bərpa edilməlidir. Ölkənin keyfiyyətli suya tələbatı su resurslarından səmərəli istifadə etməklə ödənilməlidir" [5].

Nəhayət, bütün bunlar bərpaolunan, "yaşıl" enerji ilə tamamlanmalıdır. "Yaşıl" enerji bütövlükdə Azərbaycan dövlətinin enerji strategiyasının yeni mərhələsinə aiddir. Prezident İlham Əliyev bu barədə dəfələrlə fikir bildirmişdir. "Yaşıl" enerji avtomatik olaraq həm ekoloji mühitin təmizliyini, həm də ən yeni texnologiyaların, o cümlədən, süni intellektlə idarə olunmanın tətbiqini nəzərdə tutur. Burada mütləq surətdə konkret etik qaydalara əməl olunması haqqında bu məqalənin müxtəlif hissələrində yazmışıq. Strateji sənəddə də "yaşıl" enerjidən istifadənin perspektivləri dəqiq ifadə edilmişdir. Orada yazılmışdır: "Strateji dövrdə qabaqcıl ölkələrdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadə xüsusilə daha çox artacaqdır. Bunu nəzərə alaraq, ölkədə enerjidən səmərəli istifadə edilməli və yeni dayanıqlı enerji mənbələrinə üstünlük verilməlidir.

İndiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqi genişləndirilməlidir. Elmi-texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində alternativ və bərpa olunan enerji mənbələrinin ilkin istehlakda payı artırılmaqla iqlim dəyişikliklərinə təsir azaldılmalıdır. Ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə edilməsi ətraf mühitə və atmosfer havasının keyfiyyətinə müsbət təsir göstərəcəkdir".

Beləliklə, postmüharibə mərhələsində inkişafın dayanıqlı və davamlı olması üçün etik aspekti ciddi surətdə nəzərə alan kursun həyata keçməsi önəm daşıyır. Azərbaycan dövləti bu istiqamətdə sistemli və mükəmməl proqramlarını reallaşdırır. Onun bariz nümunəsi Qarabağda yenidənqurma prosesidir. Daha geniş miqyasda isə ölkənin 2030-cu ilə qədər inkişafını müəyyən edən strateji xarakterli sənəddə konkret müddəalar əks olunmuşdur. Həmin sənəd çərçivəsində Azərbaycanın 2022-20226-cı illər inkişafının kompleks şərtləri də müəyyən edilərək konkret proqramlar vasitəsi ilə həyata keçirilir.

Bu prosesdə müasir tətbiqi etikanın bütün formalarının kompleks nəzərdə alınması ciddi yer tutur. Bura kompüter etikası, iş etikası, təşkilati etika, roboetika, süni intellekt etikası və s. kimi müasir istiqamətlər daxildir. Azərbaycan müxtəlif proqramlarda bu etikaların şərtlərini kompleks halında nəzərə alır. Bu da bütövlükdə Azərbaycanın strateji inkişafının yüksək perspektivə malik olduğunu təsdiqləyir.

**Nəticə**

Bu məqalədə aparılan təhlillər göstərir ki, süni intellektin etikası məsələsi ciddi surətdə aktuallığını saxlayır. Xüsusilə, hazırkı tarixi mərhələdə "informasiya" anlayışının geniş yayılması və cəmiyyətin həyatının bütün sferalarına nüfuz etməsi fərdi və kollektiv səviyyədə ziddiyyətlərin aradan qaldırılması məsələsini ön plana çıxarır. Etik kontekstdə problemin analizi göstərir ki, nəzəri və metodoloji çərçivədə bu kimi məsələlərin həlli üçün müəyyən perspektivlər mövcuddur.

Konkret olaraq, postmüharibə mərhələsində Azərbaycanın dayanıqlı və davamlı inkişafı kursunda etik aspekt böyük ölçüdə nəzərə alınır. Strateji sənədlərdə konkret məqsədlər müəyyən edilmişdir ki, onlarda müasir tətbiqi etikanın bütün istiqamətləri əhəmiyyətli dərəcədə proqramların

məzmun və məqsədlərində ifadəsini tapmışdır. Bütün bunların əsasında postmüharibə mərhələsi üçün bir sıra mühüm nəticələr hasil edə bilərik.

1. Süni intellektin fəlsəfi-etik dərkinin perspektivləri kontekstində yeni etik problemlərin həlli aktuallıq kəsb edir. Çünki onları həll etmədən ümumi miqyasda süni intellektin yaradılması perspektivindən danışmaq çətindir;

2. Azərbaycanda postmüharibə mərhələsində dayanıqlı və davamlı inkişafla bağlı həyata keçirilən proqramlarda müasir tətbiqi etikanın müxtəlif istiqamətləri ciddi surətdə nəzərə alınır.

3. Bu zaman, həmin etik istiqamətlərin bir-biri ilə uyğunlaşdırılması başlıca tətbiq prinsipi kimi qəbul edilir.

4. Bu xüsusiyyətlər Azərbaycanın 2030-cu ilə qədər inkişafının Milli Prioritetləri ilə bağlı hazırlanmış strateji sənəddə və ayrıca 2022-2026-cı illəri əhatə edən strateji inkişafa aid sənəddə konkret ifadəsini tapmışdır.

5. Qarabağın postmüharibə mərhələsində yenidən qurulmasında etik aspekt ön planda nəzərə alınır.

6. Yekun olaraq belə qənaət əldə edilir ki, Azərbaycanın strateji inkişaf kursu bütövlükdə etik mahiyyətlidir və orada mədəni, mənəvi-əxlaqi və ekoloji dəyərlər rəqəmsal kültür şəraitində uğurlu olmaq kontekstində nəzərə alınır.

## ƏDƏBİYYAT:


1. Алексеев, А.Ю. Методологические контуры науки об электронной культуре // Вузы культуры и искусств в мировом образовательном пространстве: новые пути наук о культуре: материалы междунар. науч.-практ. конф., Москва, 28–29 мая 2009 года. – Москва, – 2009, ч. 2, – с. 6–16.
2. Алексеев, А.Ю. Роль нейрокомпьютера в электронной культуре // Нейрокомпьютеры: разработка, применение. – 2010, – № 8, – с. 14–26.
3. Chalmers D.J. The Singularity: A Philosophical Analysis // J. Conscious. Stud. – 2010, – № 17, – p. 7–65.
4. Сёрль, Дж. Сознание, мозг и программы: [Электронный ресурс] // Перевод на русский язык: А. Л. Блинов / Центр гуманитарных технологий. – 10.12.2013. URL: https://gtmarket.ru/library/articles/6661. Дата обращения 26.06.2023.
5. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər: [Elektron resurs] // Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, 02 fevral – 2021. URL: https://president.az/az/articles/view/50474. Müraciət tarixi: 26.06.2023.
6. Azərbaycan ─ 2026: Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti // Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Bakı, - 2023, 83 s.
7. Иванов, А.С. Этика бизнеса // Российский внешнеэкономический бизнес. – 2008, – №7, – с. 70-73.

## РЕЗЮМЕ

***Фахрия МАМЕДЗАДЕ***

***Информационная этика на послевоенном этапе в контексте процесса реконструкции Карабаха***

***Ключевые слова**: послевоенное время, искусственный интеллект, информационная этика, Карабах, реконструкция, цифровые технологии*

В статье подчеркивается большая роль информационной этики в процессе восстановления Карабаха на послевоенном этапе. Отмечается, что новые информационные технологии должны применяться в восстановлении Карабаха по четко разработанным программам. Похоже, что человеческий капитал занимает центральное место в стратегии развития Азербайджана, а его развитие является главной стратегической целью. Это означает, что все реализуемые программы по своей сути ориентированы на человека и направлены на обеспечение коллективного благосостояния.

Таким образом, в своей исследовательской работе автор учитывает реализацию курса, строго учитывающего этический аспект устойчивого и дальнейшего экономического и экологического развития нашей страны на послевоенном этапе.



## ABSTARCT

***Fakhriya MAMMADZADE***

***Information Ethics in the Post-War Phase in the Context of the Reconstruction Process of Karabakh***

***Keywords:** post-war period, artificial intelligence, information ethics, Karabakh, reconstruction, digital technologies*

The article highlights the great role of information ethics in the reconstruction process in Karabakh at the post-war stage. It is noted that new information technologies should be applied in the reconstruction of Karabagh according to precisely developed programs. It seems that human capital occupies a central place in Azerbaijan's development strategy, and its development is the main strategic goal. This means that all programs to be implemented are essentially human-oriented and aimed at ensuring collective welfare.

Thus, in his research work, the author takes into account the implementation of a course that strictly considers the ethical aspect of the sustainable economic and ecological development of our country in the post-war phase.